РЕПУБЛИКА СЕВЕРНА МАКЕДОНИЈА - REPUBLIKA E MAQEDONISË SË VERIUT
НАЦИОНАЛНА УСТАНОВА - INSTITUCIONI NACIONAL
НАЦИОНАЛНА И УНИВЕРЗИТЕТСКА БИБЛИОТЕКА "СВ. КЛИМЕНТ ОХРИДСКИ"
BIBLIOTEKA NACIONALE DHE UNIVERSITARE "SHËN KLEMENTI I OHRIT"
Бр.-Nr. 10-488/1
18.09 2023 год.-viti
СКОПЈЕ - SHKUP

**Makedoniya Milli və Universitet Kitabxanası ilə**

**M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası arasında**

**Əməkdaşlıq haqqında Memorandum**

Bundan sonra "İştirakçılar" adlandırılacaq Makedoniya Milli və Universitet Kitabxanası və M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

İki kitabxana arasında mövcud əlaqələri daha da gücləndirmək niyyəti və müvafiq əməkdaşlığı inkişaf etdirmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

**Paraqraf 1**

İştirakçılar kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, sənədlərin elektron mübadiləsi və çatdırılması, elmi biblioqrafiya, nadir kitabların bərpası, konservasiyası və rəqəmsallaşdırılması, kadr hazırlığı sahələrində əməkdaşlıq edəcəklər.

**Paraqraf 2**

İştirakçılar kitabxana elminin, kitabxana-informasiya sahəsinin inkişaf perspektivləri, nailiyyətləri barədə qarşılıqlı təcrübə və bilik əldə etmək məqsədilə aşağıdakı sahələr üzrə əlaqələri inkişaf etdirəcəklər:

- kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması;
- elektron kataloq və elektron kitabxanalardan qarşılıqlı istifadə;
- məlumat bazalarının idarə edilməsi;
- kitab və kitab nəşri sahəsində elmi tədqiqatların aparılması;
- nadir kitabların mühafizə, bərpa və konservasiyası:
- kitabxana arxivlərinin keyfiyyətinin təkmilləşdirilməsi məqsədilə nadir kitabların və əlyazmaların rəqəmsal surətləri daxil olmaqla beynəlxalq kitab mübadiləsinin inkişafı;
- kitab sərgilərinin təşkili;
- kitabxana elminin bütün sahələrində mütəxəssislərin təcrübə mübadiləsinin aparılması, treninq kursları, seminarlar, elmi konfranslar və simpoziumların keçirilməsi.

**Paraqraf 3**

Bu Anlaşma Memorandumu İştirakçıların yazılı qarşılıqlı razılığı ilə bu Memorandumun ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilə bilər.

**Paraqraf 4**

Bu Memorandum beş (5) il müddətinə bağlanılır və İştirakçılardan biri onun müddətinin bitməsinə ən azı üç (3) ay qalmış onu ləğv etmək niyyəti barədə digər İştirakçıya yazılı bildiriş göndərmədiyi təqdirdə, avtomatik olaraq növbəti beş (5) il müddətinə uzadılır.

**Paraqraf 5**

Bu Memorandum imzalandığı tarixdən qüvvəyə minir.

**Paraqraf 6**

Bu Memorandum İştirakçı dövlətlər üçün beynəlxalq hüquqla tənzimlənən heç bir hüquq və öhdəlik yaratmır.

Bu Memorandum Bakı şəhərində "20" Sentyabr 2023-cü il tarixində iki əsl nüsxədə olmaqla, hər biri Azərbaycan və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər etibarlıdır. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

Makedoniya Milli və Universitet Kitabxanası

Direktor

Rahmetula Kuqi

İmza:

F.Axundov adına Azərbaycan Milli Kitabxanası

Direktor

Prof. Kərim Tahirov

İmza: